# QRUPİŞİ

*Kazus № 1*

Ərizəçi A.Kərimov "Vətəndaşların hüquqlarının müdafiəsi" adlı ictima birlik yaratmaq istəyir. Bununla bağlı sənədləri08.07.2001-ci ildə "Vətəndaşların hüquqlarının müdafiəsi" ictimai birliyinin qeydiyyata alınması üçünAzərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edir. Ədliyyə Nazirliyi 25 gün sonra Nizamnamədə müəyyən texniki səhvlərə görə düzəliş olması səbəbi ilə vətəndaşın sənədlərini geri qaytarır. Ədliyyə Nazirliyi sənədləri qanunda nəzərdə tutulduğundan15 gün gec göndərir. Vətəndaş Ədliyyə Nazirliyinin tələb etdiyi düzəlişi edir və sənədləri yenidən göndərir. Ədliyyə Nazirliyi işə yenidən baxır və 1 ay 20 gündən sonra Nizamnamədə təftiş şurasının təftiş müddətinin göstərilməməsinə görə sənədləri yenidən geri qaytarır. Bu dəfə də yenidən müddət pozuntusu baş vermişdi və yenidən vətəndaş 3 iş günü ərzində Nizamnaməni düzəldib göndərir. Ədliyyə Nazirliyi sənədləri geri qaytarır, İctima birliyi qeydiyyata almaqdan imtina edir. İmtinanın əsası kimi onu göstərir ki, İctimai Birliyin Nizamnaməsində konkret olaraq ölkənin hansı regionunda fəaliyyət göstərəcəyi göstərilməmişdir. Vətəndaş bu dəfə də sənədləri düzəldir və göndərir. Ədliyyə Nazirliyinin sonuncu imtina cavabı İctimai birliyinə qoyulan adın "Vətəndaşların hüquqlarının müdafiəsi" adı ümumi xarakterli bir ad olduğuna görə Ədliyyə Nazirliyi qeydiyyata alınmadığını bildirir və sənədləri geri qaytarır. Bu dəfə isə A.Kərimov Yasamal rayon Məhkəməsinə iddia ərizəsi ilə müraciət edir və onun birləşmək azadlığını,Ədliyyə Nazirliyinin qeyri qanuni qərarlarından şikayət edir və mənəvi zərər kimi 25 milyon manat (köhnə azn) təzminat istəyirdi.Yasamal rayon Məhkəməsi iddianı təmin etmir və rədd edir. Azərbaycan Respublikası Apelyasiya Məhkəməsi də iddianı təmin etmir və rədd edir. Ali Məhkəmədə təmin etmir və Yasamal rayon Məhkəməsinin qərarını qüvvədə saxlayır. Vətəndaş bununla bağlı Ali Məhkəmənin Plenumuna şikayət verir. Ali Məhkəmənin Plenumu vətəndaş haqqında qəbul olunmuş 3 məhkəmənin qərarını ləğv edir və işə yenidən baxılması üçün Yasamal rayon Məhkəməsinə göndərir. Yasamal rayon Məhkəməsi vətəndaşın ictimai birliyinin qeydiyyata alınmasına imtinanı əsassız adlandırır və qeydiyyata alınmanı Ədliyyə Nazirliyinin qarşısına öhdəlik qoyur, eyni zamanda mənəvi zərərdən imtina edir. Vətəndaş Apelyasiya Məhkəməsinə şikayət edir. Apelyasiya Məhkəməsi Yasamal rayon Məhkəməsinin qərarını qüvvədə saxlayır. Ali Məhkəmədə həmçinin qüvvədə saxlayır. Vətəndaş bu qərardan narazı qalır və işi Avropa Məhkəməsinə verir.

Avropa Məhkəməsində işin prespektivi necədir?

*Hazırladı: Ramil Süleymanov*